# Dinamik və davamlı tərəqqi



## Qarabağ və Şərqi Zəngəzurla yanaşı, respublikamızın bütün bölgələrinin inkişafı iqtisadi qüdrətin göstəricisidir

**Regionların tərəqqisi ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bölgələrin inkişafı sahəsində uğurla reallaşdırılan dövlət proqramları ölkədə qeyri-neft sektorunun davamlı yüksəlişinə, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına təkan verib.**

Respublikamızın bütün bölgələrinin hərtərəfli tərəqqisini xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil inkişaf konsepsiyasının icra vəziyyəti ilə bağlı hər il hökumətin xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət siyasətinin prioritetidir.

Son illərdə İlham Əliyevin rəhbərliyi və tapşırığı ilə regionlarda müxtəlif sahələri özündə əks etdirən geniş və çoxşaxəli layihələr həyata keçirilir. Buna görə də dövlət başçısı mütəmadi olaraq ölkənin müxtəlif rayonlarında olur. Prezident səfər çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə uyğun müəssisələrin açılışını edir, onların fəaliyyətini yoxlayır, regionların sosial-iqtisadi vəziyyəti ilə yerində tanış olur və bu sahədə müvafiq tapşırıqlarını verir. Avqustun 7-də dövlət başçısının Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri zamanı müasir yol xəttinin, xəstəxana, məktəb və digər xidmət və istehsal sahələrinin açılışının edilməsi regionların inkişafına olan diqqətin təzahürüdür. Bütün bunlar ilk növbədə dövlətin iqtisadi qüdrətinin göstəricisidir.

→ 2

# Dinamik və davamlı tərəqqi

## Qarabağ və Şərqi Zəngəzurla yanaşı, respublikamızın bütün bölgələrinin inkişafı iqtisadi qüdrətin göstəricisidir

*Əvvəli 1-ci səh.*

2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən 4 dövlət proqramı (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023), həmçinin 44 günlük Vətən müharibəsindən sonra təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsasında müəyyən olunan inkişaf strategiyası məhz dövlət başçısının müvafiq fərman və sərəncamları ilə həyata keçirilməkdədir. Hazırda icra edilməkdə olan regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafına dair dövlət proqramına əsasən, respublikamızın müxtəlif rayonlarında geniş abadlıq-quruculuq işləri aparılır, sosial və iqtisadi infrastruktur layihələri həyata keçirilir.

Prezidentin son səfəri zamanı Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzinin açılışını etməsi də önəmli hadisələrdən biri sayılmalıdır. Dövlət başçısı bununla Qazax seminariyasının tarixi nüfuzunu yenidən bərpa etdi. Bu, həm də İlham Əliyevin Azərbaycan elminə və təhsilinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Göründüyü kimi, Azərbaycan Prezidenti əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl və davamlı siyasət yürüdür. Atılan addımlar məqsədyönlü şəkildə həyata keçirilir. Görülən işlər, reallaşdırılan layihələr Azərbaycan xalqının daha yaxşı yaşamasına, rifah halının yüksəldilməsinə hesablanıb.

Bu sənədlərin, xüsusilə Milli Prioritetlərin qəbul edilməsi bütün ölkə ərazisində dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılması ilə ümumilikdə iqtisadi inkişafın sürətləndirilməsi, yeni infrastruktur obyektlərinin inşası, əhalinin məşğulluğunun təmin olunması və sosial rifah halının yüksəldilməsi nəticəsində ədalətli və inklüziv cəmiyyətin qurulması, insan kapitalının inkişafı və müasir innovasiyalarla təminatın genişləndirilməsinə xidmət edir. Eyni zamanda işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin olunması, həmçinin ekoloji təhlükəsizliyinin gücləndirilməsi, Azərbaycanın "yaşıl artım ölkəsi"nə çevrilməsi, yəni qeyri-neft sektorunun inkişafı nəticəsində yaşıl iqtisadiyyatın artırılması istiqamətlərində işlərin yeni mərhələyə qədəm qoymasından xəbər verir.

44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgəsinin ölkəmizin ümumi iqtisadiyyatına reinteqrasiyası məqsədilə yenidən qurulması, beynəlxalq və regional nəqliyyat-logistika layihələrinin həyata keçirilməsi əlbəttə ki, dövlətimiz üçün prioritet təşkil edir. Lakin bununla yanaşı, digər iqtisadi rayonlarımızın da sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında nəzərdə tutulan heç bir sosial layihə təxirə salınmır. Prezidentin regionların inkişafı məsələlərini şəxsi nəzarətində saxlaması, bu istiqamətdə tapşırıqlar verməsi və qərarlar qəbul etməsi Azərbaycanın müasir simasının formalaşdırılmasıdır. Bölgələrdə iş yerlərinin yaradılması ilə insanların fəaliyyəti, xüsusilə də biznes və sahibkarlıq mühitinin formalaşdırılması, inkişafı və həyata keçirilən digər işlər bütövlükdə Azərbaycanın iqtisadiyyatının artması deməkdir.

Bu reallıqlar onu deməyə əsas verir ki, İlham Əliyevin sözü ilə əməli arasında heç bir fərq yoxdur. İndiyədək verdiyi vədləri vaxtında, zamanında yerinə yetirib və bu gün də davam etdirir. Azərbaycan Prezidentinin inkişaf konsepsiyası ilə ölkənin bütün bölgələrinin siması dəyişib. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması isə ölkəmizin iqtisadi qüdrətinə güc qatacaq.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

Azərbaycan. - 2023.- 11 avqust.- S.1-2.